

# Arif SƏFİYEV

Azərbaycan elmi ictimaiyyətinə ağır itki üz verib. Böyük ədəbiyyatşünas alim Arif Səfiyev 90 yaşında vəfat edib.

Arif Məhərrəm oğlu Səfiyev 6 may 1934-cü ildə Füzuli şəhərində dünyaya gəlmişdir. Şəhər orta məktəbini bitirdikdən sonra ADU-nun filologiya fakültəsinə daxil olmuşdur. 1958-ci ildə universiteti tamamlamış, əmək fəaliyyətinə "Avtomobil nəqliyyatçısı" qəzeti redaksiyasında ədəbi işçi kimi başlamışdır. 1961-ci ilədək redaksiyada çalışmış, sonra Azərbaycan EA Nizami adına Ədəbiyyat İnistitutunun aspiranturasına daxil olmuşdur. 1964-cü ildə Aspiranturanı tamamladıqdan sonra institutda elmi işçi kimi qalmış, 1969-cu ildən 1973-cü ilədək elmi katib vəzifəsində işləmişdir. 1973-cü ildən 1990-cı ilədək institutda baş elmi işçi kimi fəaliyyət göstərmiş, 1990-cı ildən 2003-cü ilə qədər institutun elmi katibi vəzifəsində çalışmışdır.

Arif Səfiyev "Sabit Rəhmanın komediyaları" mövzusunda tədqiqat aparmış, filologiya elmlər namizədi elmi adını almışdır. O bir neçə kitabın müəllifidir. Onlardan "Sabit Rəhmanın komediyaları" (Bakı-1978), "Komediya və Həyat" (Bakı-1983), "Sabit Rəhman" (Bakı-1987), "Azərbaycan dramaturgiyası müasir mərhələdə" (Bakı-1998) adlı kitabları göstərmək olar.

Görkəmli alim Arif Səfiyev 11 aprel 2024-cü il tarixində Bakı şəhərində vəfat etmişdir.

**Allah rəhmət eləsin!**

Dəyərli alimin ruhu işıqlı qəlblərdə daim yaşayacaqdır.

**Azərbaycan Yazıçılar Birliyi**

**Ədəbiyyat qəzeti. - 2024. - 20 aprel, № 13-14. - S. 32.**